**UOT 78**
**https://doi.org/10.59849/2311-8482.2024.2.267**

**YEVA BOBROVİTSKAYA***

# ŞOPENİN FORTEPİANO MİNİATÜRLƏRİNİN XÜSUSİYYƏTLƏRİNİN TƏSVİRİ

*Təqdim olunan məqalədə F.Şopenin miniatürlərinin xüsusiyyətləri təsvir edilmişdir. Fortepiano miniatürü çox müxtəlif növdür: noktürn, mazurka, vals, ekspromt, romanslar, rəqslər, proqramlı pyeslər, etüd, prelüd və ya sadəcə pyes. Miniatürlər müstəqil pyeslər olmasına baxmayaraq, onlar silsilə və seriyalarda birləşməyə meyillidirlər.*

**Açar sözlər:** *F.Şopen, bəstəkar, miniatür, romantizm, tədqiqat, musiqi, pyes*

## Giriş

XX əsr musiqisində miniatür əsərlərin yaranması əsasən musiqi formasının qeyri-klassik təfsiri ilə əlaqələndirilir. A.Vebernin ansambl və orkestr əsərləri, B.Bartokun "Mikrokosmos" fortepiano silsiləsi miniatür formaların parlaq nümunələridir. İfaçılıq sənətində miniatürlər kiçik həcmli formaların bir növüdür, yəni kiçik həcmli estrada, teatr əsəri kimi qəbul oluna bilər. Məsələn, zarafat, intermediya, eskiz, vodevil, danışıq, xoreoqrafiya, musiqi səhnəsi və s. kimi kiçik həcmli pyeslər.

## Əsas təhlil

XVIII əsrin sonu-XX əsrin I yarısında miniatürlərdən səhnə divertismentlərində çox geniş istifadə olunmağa başlandı. Qısa bir müddət ərzində onlar konsert və estrada proqramlarının dəyişməz tərkib hissəsinə çevrildilər. Təsviri sənətdə miniatür kiçik ölçüsü və bədii üsullarının incəliyi ilə seçilən əsərdir.

Miniatür formada yazılmış əsərlər müasir musiqidə də geniş yayılmışdır. İnstrumental fortepiano pyeslərinə nümunə olaraq baqatel göstərilə bilər. "Bagatelle" fransız dilindən tərcümədə "saxta zinət əşyaları" mənasını ifadə etsə də, musiqidə ifası çox asan olan kiçik instrumental pyes kimi istifadə olunur. Ən məşhur baqatel nümunələri Lüdviq Van Bethoven tərəfindən yaradılmışdır.

Daha bir nümunə kimi "Barkarola"nı göstərmək mümkündür. İtalyan dilindən "qayıq" kimi tərcümə olunan "Barkarola" əvvəlcə Venesiya qayıqçılarının – qondolyerlərin mahnısı mənasında işlənirdi. Bir müddət sonra fortepiano pyesi, xor və digər musiqi əsəri kimi işlənilən "Barkarola" qayıqla gəzinti obrazını ifadə edir. "Barkarola" üçün musiqinin işıqlı, zərif, xəyalpərvər xarakteri və mülayim temp səciyyəvidir.

Zərif melodiyaya malik olan, əksər hallarda 6/8 və 12/8 ölçüdə yazılan pastoral da instrumental fortepiano pyeslərinə aiddir.

Kapriççio da epizodların və əhval-ruhiyyənin maraqlı dəyişməsinə əsaslanan sərbəst formalı virtuoz instrumental pyeslərdir.

Daha bir instrumental pyes skertsodur. İtalyan dilindən tərcümədə "Scherzo" "zarafat" kimi tərcümə olunur və canlı, cəld tempdə, üç təqtili kəskin ritmik fiqurlarla səslənən pyesdir.

İnstrumental pyes olan "Tokkata" italyanca "Toccare" sözündəndir və "toxunmaq" mənasını verir. Tokkata fortepiano və ya orqan üçün yazılmış virtuoz pyesdir və əsasən cəld, dəqiq ritmik ölçüyə malikdir. Bu pyesdə çox vaxt akkord texnikasının zərbli səslənişi üstünlük təşkil edir. XVI-XVIII əsrlərdə tokkata əsasən prelüdə və ya fantaziyaya yaxın olan sərbəst improvizasiyalı formada yazılırdı.

İnstrumental kimi təsnif edilə bilən növbəti pyes kədərli, düşüncəli xarakterli elegiyadır.

Alman dilindən "Humor" – "yumor" sözündən olan "Yumoreska" isə kiçik həcmli instrumental pyes olub, əsasən şən xarakterə malikdir.

Bütün instrumental pyeslər ifa tərzinə, ritmik fiqurasiyalarına və xüsusilə, emosional məzmununa görə çox fərqlidir.

Yaradıcılığında fortepiano miniatürlərinin mühüm əhəmiyyət kəsb etdiyi bəstəkarlardan biri də Frederik Şopendir. O, fransız-polyak mənşəli pianoçu və bəstəkardır, musiqi romantizminin aparıcı nümayəndələrindən biridir. Eyni zamanda F.Şopen romantizm bəstəkarlarından, həmçinin müasirlərinin əksəriyyətindən bir çox cəhətlərilə fərqlənirdi. Məsələn, R.Şuman, F.List və ya H.Berliozdan fərqli olaraq, F.Şopen özünü heç vaxt romantik adlandırmırdı. Məlumdur ki, F.Şopen ancaq fortepiano üçün əsərlər yazıb, nə opera, nə də simfoniya janrlarına müraciət etməyib. Onun əsərlərinin siyahısına fortepiano və orkestr üçün yazılmış 2 konsert (1829, 1830), fantaziya (1842), 3 sonata (1828-1844-cü illər), 4 ballada (1835-1842-ci illər), 4 skertso (1832-1842-ci illər), eləcə də noktürnlər, ekspromtlar, valslar, mazurkalar, polonezlər, etüdlər, prelüdlər, bir neçə mahnı və digər əsərlər daxildir. Onun bir çox ifaçılar tərəfindən ifa edilən ən məşhur əsəri cis-moll tonallığında yazılan "Fantasiya-ekspromt"dur [5].

Şopen mükəmməl ümumi təhsil almışdır, fransız və alman dillərinə mükəmməl bələd idi. F.Şopenin həm də rəssamlıq istedadına malik olduğunu çox az adam bilir, belə ki, o, gözəl rəsmlər, xüsusən də karikaturalar çəkirdi. Onun həyat və yaradıcılığı daim tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu elmi faktların olması onun haqqında müəyyən təsəvvürün yaranmasına səbəb olur.

Romantizmin ən görkəmli nümayəndələri F.Şopendən başqa İohannes Brams, Ferens List, Hektor Berlioz, Robert Şuman, Feliks Mendelson, Lui Spor və bir çox başqaları olmuşdur. Onların bir çoxu təkcə musiqi əsərləri yaratmaqla kifayətlənməmişdir, məsələn H.Berlioz və R.Şuman tanınmış musiqi tənqidçiləri idilər.

Romantizmin ilk cizgiləri Lüdviq van Bethovenin son dövr əsərlərində görünməyə başlayır. Məsələn, Bethovenin ilk əsərlərinin klassisizm üslubunda yaradılmasına baxmayaraq, onun 1812-ci ildə yazılmış Yeddinci simfoniyası çox vaxt romantizm dövrünün başlanğıcı hesab olunur. Klassik musiqiçilər həmişə estetikada ideala can atmışlar, romantizm nümayəndələri üçün isə əsas məqsəd hiss və ilham azadlığı olmuş, musiqi vasitələrinin köməyi ilə insanın daxili dünyasının dərinliyini və zənginliyini ifadə etməyə çalışmışlar. Romantizm dünyagörüşü xəyallarla reallıq arasında kəskin ziddiyyətlə xarakterizə olunur. Həqiqi reallıq ruhsuzdur, xəyallar isə mükəmməl olsa da, insan əqli tərəfindən qavranılması anlaşılmaz bir şəkildədir. Romantizm, daha sonra impressionizmin nümayəndələri miniatürlərə böyük diqqət və əhəmiyyət verirdilər. Çox vaxt miniatürlər silsilələrdə birləşdirilirdi, məsələn, R.Şumanın "Meşə lövhələri". Bəzi silsilələr hətta daha geniş həcmə malik olurdu, məsələn, F.Listin "Səyahət illəri" bir neçə silsilədən ibarət olan makrosilsilədir. F.Şopenin musiqisinin böyük gücü melodiyaların gözəlliyində və müxtəlifliyindədir. O, ilk növbədə musiqinin digər elementlərini də zənginləşdirmişdir. Rəqsləri, xüsusilə mazurkaları, valsları, polonezləri dramatikləşdirmişdir.

Mazurka çox sevilən polyak rəqsidir. Mazurka təkcə rəqs dünyasında deyil, həm də Polşa mədəniyyətində də böyük əhəmiyyət kəsb edir. Mazurka Polşa milli irsinin və milli ənənələrinin ayrılmaz hissəsidir. O, sevinc, məhəbbət, kədər və ehtirasları ifadə etməyə imkan verən dərin emosiyaları təcəssüm etdirir. Bütün bunlarla yanaşı, mazurka Polşanın birliyinin və zəngin mədəniyyətinin rəmzi kimi bayramlarda və ictimai tədbirlərdə böyük rol oynayır. Mazurka Polşa mədəniyyətinin qürurunu və zənginliyini ifadə edir. Klassik musiqidə bu janr təbii ki, müxtəlif bəstəkarların yaradıcılığında təmsil olunmuşdur. Mazurkanın canlılığı və emosionallığı ifaçılar üçün bu janrın hər zaman aktual və cəlbedici olmasını təmin edir.

F.Şopen digər janrlardan daha çox mazurkalara müraciət etmişdir. Mazurka sanki Şopenin "ruhunun güzgüsü" kimi onunla yanaşı addımlamışdır. Təsadüfi deyildir ki, Şopenin son əsəri də mazurka olmuşdur.

Şopen 1825-1849-cu illərdə 57 mazurka yazmışdır. Mazurka adı altında Şopen bir-birinə yaxın olan üç rəqsi birləşdirirdi: mazur, oberek və kuyavyak. Bu rəqslərin hər birinin öz xüsusiyyətləri var. Lakin əsasən mazurkalarında Şopen iki rəqsi – mazurka və kuyavyakı birləşdirirdi.

Şopenin sağlığında op. 6, 7, 17, 24, 30, 33, 41, 50, 56, 59, 63 "Mazurkalar" dərc edilmişdir. 1855-1856-cı illərdə "Mazurkalar" op. 67 və op. 68 Yulian Fontan tərəfindən nəşr olunmuşdur. Toplularına isə beşə qədər pyes daxildir, lakin bundan əlavə, səkkiz nömrəsiz mazurka da qorunub saxlanılmışdır. Op. 68-ə üç erkən və bir son dövr mazurkası daxildir. Dördüncüsü, Şopenin yazdığı sonuncu mazurkadır. Bu topluya daxil olan birinci və üçüncü mazurka 1827-ci ildə, ikinci mazurka

1829-cu ildə, dördüncü mazurka isə 1849-cu ildə yazılmışdır. Bu mazurkalar arasında olan ziddiyyət dərhal diqqəti cəlb edir, belə ki, ilk üç mazurka yüngül və parlaq xarakterlidir, lakin sonuncu mazurka daha fərqlidir. Birinci, ikinci və üçüncü mazurkada romantizm üçün səciyyəvi olan mövzularda fərqlilik nəzərə çarpır [4].

F.Şopenin ruhuna yaxın olan janr həmişə vals olmuşdur. Onun valsları ilə real həyat arasında çox yaxın əlaqə mövcuddur. Vals ilk olaraq XVIII əsrdə Vyanada populyarlaşmış və sonrakı illərdə digər ölkələrə yayılmışdır. Lakin onun vətəni XVII əsrdə yarandığı Almaniya hesab olunur. Yayıldığı dövrə nisbətən vals yüngül və şən xarakterə malik bir rəqsdir. Bununla yanaşı, vals tamamilə romantizm dövrünə xas hisslər ilə zəngindir. F.Şopen valslarını hisslərin və məhəbbətin təsiri altında yazmışdır. Şopenin yaşadığı mühit onu heytətamiz əsərlər yaratmağa ruhlandırmışdır. F.Şopen təxminən 18 vals yazmışdır. İlk valsını F.Şopen 1827-ci ildə yazıb, bu zaman onun 17 yaşı var idi. Vəfatından bir il əvvəl isə son iki valsını yazmışdır.

Onun etüdləri kimi, valsları da müasir texnika və virtuoz ifaçılıq texnikasına əsaslanan zərif və dərin məzmunlu konsert pyesləridir. Onun valslarını iki növə bölmək mümkündür. Bəziləri işıqlı və parlaq, digərləri isə insan ruhunun həyəcanları ilə dolu xəyalpərvər, kədərli, melanxolik və həzin miniatürlərdir. Quruluş baxımından valslar olduqca fərqlidirlər, lakin əksəriyyəti üçhissəli formaya malikdir. Əsasən onlar bir neçə bölmədən ibarətdir və bölmələrdən birincisi rondoda olduğu kimi müntəzəm şəkildə təkrarlanır.

Polonez də polyak milli musiqi janrıdır. Bu janra təkcə Polşa bəstəkarları deyil, məsələn, İ.S.Bax, V.A.Motsart kimi bəstəkarlar da müraciət etmişlər.

Polonezin mənşəyi zadəgan mühitilə bağlıdır. Amma vətənpərvərlik hissinin tərənnümünə görə polonezlər mazurka ilə oxşarlıq təşkil edir. Məhz polonez janrı ilə Şopen gələcək azad Polşanı xəyal edərək vətənini şöhrətləndirməyə nail olmuşdur. O, təxminən 21 polonez yazıb. Onun polonezlərini iki qrupa bölmək olar: daha çox ənənəvi olanlar, yəni yürüş rəqsləri (№3 və №6) və məzmunu Polşadakı ictimai-siyasi hərəkatlarla birbaşa əlaqəli olan polonezlər. Son dövr polonezləri simfonik poema və balladalara bənzəyir.

XIX əsrin əvvəllərindən yayılmağa başlayan noktürn musiqi pyeslərinin adıdır. “Nocturne” fransız dilindən “gecə pyesi” kimi tərcümə olunur. İtalyan termini olan “notturno” isə XVIII əsrdə açıq havada ifa olunan musiqi mənasını verirdi. Noktürn “gecə mövzusunda” yazılmış kiçik həcmli pyesdir. Noktürn üçün melodiya və müşayiət arasında əlaqənin olması səciyyəvidir. Noktürnün musiqisi xəyalpərvər olması ilə fərqlənir və xoşbəxt anların parlaq xatirələrini ifadə edir. Noktürn geniş inkişaflı melodiyaya əsaslanır və bunun sayəsində bu janr instrumental pyes kimi səciyyələnir. Eyni zamanda noktürnlər müxtəlif alətlər üçün də yazılsa da, əsasən fortepiano üçün nümunələrə daha çox rast gəlinir. Romantizm bəstəkarları keçmişi xəyal etmək və xatırlamaq üçün gecə ab-havasına daha çox üstünlük verirdilər.

Şopen 1827-ci ildən 1846-cı ilə qədər 21 noktürn yazmışdır. Lakin bu noktürnlərdən başqa, XVIII-XIX əsrlərə aid müxtəlif bəstəkarların çox nadir əsərlərinin saxlandığı arxivdən də Şopenin bir neçə noktürnü də tapılmışdır. Amma bu əlyazmalar Şopenin vəfatından sonra aşkar edilmişdir və bəstəkarın yaradıcılığının tədqiqatçıları bu pyeslərin ona məxsus olmasına şübhə ilə yanaşırlar. F.Şopenin yazdığı noktürnlər tanınmış pianoçuların repertuarına daxildir. Noktürn №2 (op.9) onun ən məşhur noktürnlərindən biridir.

Şopen tez-tez noktürnlərini yenidən işləyirdi, uğursuz hesab etdiklərini məhv edərək, onların əsərlərinin siyahısında yer almağa layiq olmadığına inanırdı. O, əsasən tamamilə onu qane edən əsərləri nəşr etdirirdi. Noktürn №1-18 Şopenin sağlığında, №19 və №20 noktürnləri isə ölümündən sonra nəşr olunmuşdur. №21 noktürn isə 1870-ci ilə qədər noktürn janrına aid edilməmişdir.

Şopen op. 37 g-moll və G-dur noktürnlərini həyat yoldaşı və fransız yazıçısı Jorj Sanda həsr etmişdir. 1829-1830-cu illərdə yazılmış üç noktürn (op.9) isə tanınmış belçikalı pianoçu Kamilla Moka həsr olunmuşdur. Des-dur və cis-moll noktürnləri (op.27) bəstəkarın həyatının ən xoşbəxt illərində yazılmışdır. Belə ki, op.27 noktürnləri 1834-1835-ci illərdə yazılmış və 1836-cı ildə nəşr edilmişdir.

Bəstəkarın yüksək əhval-ruhiyyədə yaratdığı miniatürlər arasında “24 prelüd” silsiləsi xüsusi yer tutur. Qeyd edək ki, Şopenin 26 prelüdü var: 24 prelüddən ibarət silsilə və ayrıca 2 prelüd. Şopen

ilk dəfə olaraq, prelüdü müstəqil fortepiano janrı səviyyəsinə qaldırmışdır. Onun prelüdləri hər hansı janra giriş əhəmiyyəti daşımır. Şopenin prelüdləri kvinta dairəsi üzrə növbələşərək bir-biri ilə kifayət qədər ziddiyyət təşkil etməklə yanaşı, həm də obraz müxtəlifliyinə malikdirlər. Onun prelüdlərində müxtəlif janrların birləşməsinə rast gəlmək mümkündür. №5, №11, №12 prelüdləri daha çox etüdə bənzəyir. №20 prelüddə dəfn marşı xüsusiyyətləri var, №24 prelüd isə dramatizminə görə inqilabi etüdlə oxşardır. №15 prelüd noktürn janrına xas olan xüsusiyyətlərə malikdir.

№9 prelüd E-dur marş, himn və xor kimi janrların xüsusiyyətlərini özündə birləşdirir. F.Şopenin prelüdlərini bir növ bəstəkarın hisslərinin və axtarışlarının gündəliyi də adlandırmaq olar. №4 e-moll prelüd xüsusi ifadəliliyə malik miniatür kimi şərh oluna bilər. Bu prelüd dramatik səhnə əhəmiyyəti kəsb edərək, təkrar quruluşlu formada yazılmışdır. Musiqi mətni bir səhifədən ibarət olsa da, obraz-emosional aləmi daha genişdir. Bu prelüd miniatür nümunə kimi böyük əhəmiyyət kəsb edir.

Etüd fransızca “etüde” sözündən götürülüb və “öyrənmək” mənasını verir. Etüd hər hansı mürəkkəb ifa texnikasının istifadəsinə əsaslanan və ifaçının texnikasını təkmilləşdirmək üçün zəruri olan, adətən kiçik həcmli instrumental pyesdir. Etüdlər adətən müxtəlif musiqi alətləri – nəfəsli, simli, klavişli və zərb alətləri üçün nəzərdə tutulur.

K.Çerni, İ.Kramer, M.Klementi, İ.Moşeles və başqaları əsərlərində müxtəlif texniki üsulları ciddi bir şəkildə inkişaf etdirmişlər. Lakin bu bəstəkarların etüdləri Şopenin etüdlərindən tamamilə fərqlidirlər. Şopen etüdə canlı obrazlar və dərin məna bəxş edərək, onları yeni səviyyəyə qaldırmışdır. Amma maraqlısı odur ki, Şopen hesab edirdi ki, onun etüdlərini düzgün ifa etmək üçün ifaçı müəyyən əsərləri, o cümlədən Klementinin etüdlərini mütləq şəkildə mənimsəməlidir.

Şopen 27 etüd müəllifidir və etüdləri özü tərəfindən adlandırılmamışdır. Onun üçün etüd ilk növbədə, üsyan yatırıldıqdan sonra qan içində boğulan vətəni ilə bağlı həyəcanlarını təcəssüm etdirdiyi xüsusi bir janr idi. Onun ən məşhur etüdlərindən biri və ilk qəhrəmanlıq əsəri “İnqilabi etüd” adlanan Etüd №12 (op.10) olmuşdur. O, bu etüdü 1830-cu ildə Polşada rus istilasına qarşı üsyan zamanı bəstələmişdir.

Onun etüdlərində piano ifaçılıq texnikasının tələblərinə cavab verən bütün texniki üsullar vardır. 1839-1849-cu illərdə yazdığı və heç bir opusa daxil olmayan üç etüdü pianoçu və dostu İ.Moşelesə, eləcə də belçikalı musiqişünas F.Fetisə həsr olunmuşdur. Bundan əlavə, op.10-a daxil olan bütün etüdlərini isə macar bəstəkarı Ferens Listə ithaf etmişdir.

Bəstəkarın digər etüdlər silsiləsi 1837-ci ildə nəşr olunmuşdur və bu silsilə 1831-1836-cı illərdə bəstələnmiş 12 etüddən ibarətdir. Bu etüdlər fransız yazıçısı Jorj Sanda ünvanlanmışdır.

**Nəticə**

Beləliklə, qeyd etmək istərdik ki, miniatürlər konsert və estrada proqramlarının dəyişməz tərkib hissəsinə çevrilmişdir.

Ümumiyyətlə, miniatürlərin tədqiqi və F.Şopenin miniatürlərinin xüsusiyyətlərinin təsviri prosesində belə bir qənaətə gəlindi ki, polyak bəstəkarı olan F.Şopen onları əsasən əhval-ruhiyyəsinin yüksək olduğu zamanlarda, həyatdan sırf ilham aldığı bir dövrdə bəstələmişdir. Şopen miniatürlər vasitəsilə məhəbbətini, kədərini, ağrılarını ifadə etmişdir. Onu da vurğulayaq ki, miniatürlərin bir musiqi janrı kimi çiçəklənməsi məhz musiqi romantizmi dövrü ilə bağlıdır.

## ƏDƏBİYYAT

1. Həsənova, Ş.H. Musiqi tarixindən mühazirələr. I hissə / Ş.H.Həsənova. – Bakı: Adiloğlu, – 2008. – 94 s.
2. Ф.Шопен [Электронный ресурс] / URL: https:// ru.m.wikipedia.org/ wiki/%D0%A8%D0%BE%D0%BF%D0%B5%D0%BD,_ %D0%A4%D1%80%D0%B8%D0%B4%D0%B5%D1%80%D0%B8%D0%BA
3. Ф.Шопен [Электронный ресурс] / URL: https://www.belcanto.ru/chopin.html
4. Миниатюра [Электронный ресурс] / URL: https:// ru.m.wikipedia.org/wiki/%D0%9C%D0%B8%D0%BD%D0%B8%D0%B0%D1%82%D1%8E%D1%80%D0%B0

5. Шопен [Электронный ресурс] / URL: https://muzklass25.ru/%D0%BC%D1%83%D0%B7%D1%8B%D0%BA%D0%B0%D0%BB%D1%8C%D0%BD%D0%B0%D1%8F-%D0%BC%D0%B8%D0%BD%D0%B8%D0%B0%D1%82%D1%8E%D1%80%D0%B0/

***Bak**ı **Xoreoqrafiya Akademiyas**ı**n**ı**n “Musiqi incəsənəti” kafedras**ı**n**ı**n magistri***
***E-mail: 207yevaa71@mail.ru***
***Elmi rəhbər: Yeganə Tapdıqova***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***

**Yeva Bobrovitskaya**

## DESCRİPTİON OF THE FEATURES OF CHOPİN MİNİATURES

The presented article describes the description of the features of Chopin’s miniatures. Piano miniature is a huge variety of types: nocturne, mazurkas, waltzes, impromptu, romances, dances, program pieces, etude, prelude, just a play. Miniatures, despite the fact that they are independent plays, they tend to be combined into cycles and series.

**Keywords:** *F.Chopin, composer, miniature, romanticism, study, music, play*

**Ева Бобровицкая**

## ОПИСАНИЕ ОСОБЕННОСТЕЙ ШОПЕНОВСКИХ МИНИАТЮР

В представленной статье говорится об описание особенностей шопеновских миниатюр. Фортепианная миниатюра – это огромное разнообразие видов: ноктюрн, мазурки, вальсы, экспромт, романсы, танцы, программные пьесы, этюд, прелюдия, просто пьеса. Миниатюры, несмотря на то, что являются самостоятельными пьесами, они тяготеют к объединению в циклы, серии.

**Ключевые слова:** *Ф.Шопен, композитор,* миниатюра, романтизм, исследование, музыка, пьеса

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 09.04.2024**
**Son daxilolma tarixi:10.06.2024**